"Şəhərsalma və Memarlıq İli"

# Xaqani Şirvaninin adını daşıyan köhnə "Molokan bağı"



**Qədim Bakının memarlıq tikililəri, məhəllə və meydanları, tarixi yerləri sırasında park və bağların da mühüm yeri var. Belə tarixləşən ünvanlardan biri də şəhərin mərkəzində yerləşən, ta qədimdən "Molokan bağı" kimi tanınan indiki "Xaqani bağı"dır. "Şəhərsalma və Memarlıq İli" çərçivəsində bağın tarixi və taleyi ilə tanışlıq bizi xəyalən ötən əsrin əvvəllərinə apardı.**

Məxəzlərdən məlum olur ki, Bakı şəhərinin ən qədim parklarından hesab edilən bu park 1860-cı illərdə molokanlar tərəfindən salınmışdır. Bağın mərkəzində üç elementin təcəssümü "Üç lütf" heykəltaraşlıq qrupu olub: günəş, hava və su. Təbii daşdan böyük bloklar heykəl üçün postament rolunu oynayıb. 1860-cı illərdə parkın ətrafında bir neçə karvansara olub. Bu karvansaralarda rayonlardan və Bakıətrafı ərazilərdən satış üçün mallarla Bakıya gələn molokanlar yaşayıblar. Bəziləri yaxınlıqda məskunlaşaraq, Molokan qəsəbəsini təşkil etmişdilər. Daha sonra, yəni 1870-ci ilin əvvəllərində onlar kiçik bir park düzəltmişdilər. Parkın mərkəzindəki fəvvarə yaxınlıqda, Mariinskaya (Rəsul Rza) və Molokanskaya (Xaqani) küçələrinin kəsişməsində yaşayan molokan Kaşçeyev tərəfindən tikilmişdir. 1915-ci ildə şəhərin mərkəzi məhəllələrinin inkişafı ilə əlaqədar həyətləri və tövlələri olan Molokan qəsəbəsi sökülmüş, molokanlar isə Dəmir yolu vağzalı istiqamətinə köçürülmüşlər. O zaman meydanın adı dəyişdirilərək "Mariinski" meydanı adlandırılmışdı.

Azərbaycanda sovet hakimiyyəti qurulandan sonra bağa bolşevik Həşim Əliyevin adı verilmiş, sonralar isə 1905-ci ilin Qanlı bazar günü xatirəsinə "9 Yanvar bağı" adlandırılmışdır. Ötən əsrin sonlarında Azərbaycan öz tarixi müstəqilliyini bərpa etdikdən sonra bağ başdan-başa yenilənib, adı dəyişdirilərək Xaqani Şirvaninin şərəfinə adlandırılıb. Bağın arxitektura-landşaft kompozisiyasının əsası üç qızın heykəlindən təşkil edilmiş "Üç gözəl" heykəllər qrupu ilə əyri cızıqlı formalı hovuzdan ibarətdir. Heykəllər qrupu adi daşın böyük parçaları üzərində oturdulmuşdur.

Bağ pavilyonunun cərgələri su hovuzundan başlayır. Bağın yolları elə istiqamətlənib ki, onlar mərkəzdə yerləşən hovuza qədər diaqonal şəklində davam edir. Ərazisi 0,8 hektar olan bu tarixi məkan cənubdan Üzeyir Hacıbəyli, şimaldan Xaqani, şərqdən Qoqol, qərbdən Rəsul Rza küçələri ilə məhdudlaşır. Park gözəlliyi və qədimliyi ilə Bakıya gələn turistlərdə və gənc nəsildə böyük maraq doğurur.

***R.SALMANLI,***
***"Azərbaycan"***

Azərbaycan.- 2026.- 6 fevral (№23).- S.11.